# Milli maraqlar üzərində qurulan müstəqil siyasət



***Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır.***

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib.

Bununla yanaşı, tarazlaşdırılmış və milli maraqlara əsaslanan siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

"Bizim xarici siyasətimiz məhz milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Deyə bilərəm ki, buna müvəffəq olmuşuq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev söyləyib. Azərbaycan regionda, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanmışdır. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 22 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilmişdir.

2003-cü ildən başlayaraq Azərbaycanın xarici siyasətində Qərb dövlətləri, Rusiya, İran, Türkiyə, Çinlə əlaqələr və Ermənistan-Azərbaycan münaqişəsinin həlli əsasında ərazi bütövlüyünün təmini prioritet istiqamətlər olub. Bu ümumi çərçivədə Azərbaycan regional və beynəlxalq təşkilatlarda fəallığını ardıcıl olaraq artırıb, xüsusilə BMT üzvü olaraq ciddi diplomatik addımlar atıb. Bakının İslam ölkələri və Avropa İttifaqı ilə də əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Gürcüstan, İran, Türkiyə və Rusiya ilə əməkdaşlıqda böyük irəliləyişlər əldə olunub. Azərbaycan Avropa İttifaqı ilə müxtəlif proqramlarda, o cümlədən "Şərq Tərəfdaşlığı" proqramında əməkdaşlığa böyük diqqət yetirib. Bütün bunların sırasında Azərbaycanın BMT Təhlükəsizlik Şurasına müvəqqəti üzv seçilməsinin xüsusi yeri olduğunu vurğulamalıyıq. Ölkəmiz ABŞ, Avropa, Rusiya, Türkiyə və İranla da faydalı əməkdaşlığı davam etdirir. Bunlarla yanaşı, Azərbaycan beynəlxalq təşkilatlarda (Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatında) fəallığını daha da artırır. Azərbaycanın milli maraqlara xidmət edən balanslı siyasəti zərər görmədi. Dövlət başçısının müdrik addımları nəticəsində Avropa İttifaqı, ABŞ, Rusiya və İran faktorları da yeni geosiyasi reallıqlar kontekstində xarici siyasətin yeni prioritetləri sırasında mühüm yer tutur.

**Bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri var**






Müstəqil Azərbaycan multiregional xarici siyasət həyata keçirir. Prezident İlham Əliyev uzaqgörən siyasətçi kimi ölkənin daxili və xarici siyasət prioritetlərini məharətlə uzlaşdırır. Daxili siyasətimizdəki uğurlar dövlət başçısının fəal diplomatik səyləri və milli maraqlara əsaslanan çoxvektorlu xarici siyasət kursu ilə tamamlanır. Bütövlükdə, ötən illər ərzində Azərbaycanın xarici siyasətində mühüm nailiyyətlər əldə edilib, ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlib. Prezident İlham Əliyevin bildirdiyi kimi, heç bir dövlət qonşularla yaxşı münasibətlər qurmadan uğurlu inkişafa nail ola bilməz. Bu baxımdan Azərbaycanın qonşuluq siyasəti xoş mərama əsaslanır. Belə bir ardıcıl xarici siyasət kursunun məntiqi nəticəsidir ki, respublikamız müstəqillik tarixində işğalçı Ermənistan istisna olmaqla, bütün qonşularla yüksək səviyyəli münasibətlər qurmağa nail olub. Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər bütövlükdə Cənubi Qafqazın, Xəzər hövzəsi regionunun inkişafını, burada sağlam əməkdaşlıq konfiqurasiyasının formalaşmasını hədəfləyir. İndiyədək Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan bir sıra enerji və nəqliyyat layihələri ölkəmizin mənafeyinə xidmət etməklə yanaşı, həm də regional və qlobal əhəmiyyət daşıyır.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz. Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanı qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir. Bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyi üçün böyük təminat verməklə yanaşı, iki qardaş dövlətin birliyi və strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. Eləcə də ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycanın enerji diplomatiyası regional təhlükəsizliyə, beynəlxalq əməkdaşlığa və milli maraqlara xidmət edir.

Əlverişli coğrafi məkanda yerləşən Azərbaycan Qərb və Şərq, Şimal və Cənub ölkələrini birləşdirən ən qısa nəqliyyat və enerji dəhlizidir. Strateji əhəmiyyətli energetika və nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin arxitekturasında mühüm yer tutur. Dinamik inkişafda olan Azərbaycan bu gün transsərhəd layihələrin əsas icraçısıdır. Xarici ölkələrin iqtisadiyyatına sərmayə qoyuluşu region ölkələrində daha qabarıq şəkildə özünü büruzə verir.

İkinci Qarabağ müharibəsi və onun nəticələri Cənubi Qafqazın geosiyasi mənzərəsini tamamilə dəyişib. Öz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qoruyan Azərbaycan bu gün uğurla beynəlxalq əməkdaşlığı, balanslı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir. Otuz illik işğala son qoymaqla ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan bu gün işğaldan azad edilən ərazilərdə uğurla bərpa-quruculuq aparır. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə zəmin yaradıb. Azərbaycan ordusu ən müasir silahlar və texnika ilə təchiz olunur. Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Azərbaycan Ordusunun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb.

Müasir dövrdə dünya siyasətində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda beynəlxalq münasibətlər sisteminin yeni çağırışları meydana gəlir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətin önəmindən asılıdır. Səmərəli və praqmatik müstəqil siyasət milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitliyə və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir.

Ölkəmiz xarici siyasət meydanında müstəqil siyasət yürüdür və heç bir dövlət öz iradəsini ona diktə edə bilməz. Azərbaycan daim öz milli maraqlarını, müstəqil və balanslaşdırılmış xarici siyasət prinsiplərini əsas tutaraq ölkəmizi region dövlətlərinin inkişafı, ortaq mənafelərin ödənilməsi üçün sülh və əməkdaşlıq məkanına çevirməyə nail olmuş, beynəlxalq münasibətlərdə hüquq bərabərliyinə söykənən əməkdaşlıq modellərinə üstünlük vermişdir. Azərbaycanın yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası, ilk növbədə, region və Qərb ölkələri ilə sağlam münasibətlərin inkişafını, bütün dövlətlər və koalisiyalarla qarşılıqlı faydalı əməkdaşlıq qurulmasını nəzərdə tutur. Çoxvektorlu xarici siyasət kursunu reallaşdıran Azərbaycan Respublikası bununla özünü çoxsaylı təhdidlərdən xeyli dərəcədə qorumağa, ölkədə sabitliyi saxlamağa və dünyanın bir sıra dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa nail olmuşdur.

Bu gün Azərbaycanın dünyada çox etibarlı tərəfdaş kimi tanındığını vurğulayan Prezident İlham Əliyev deyib: "Tərəfdaşlar bilirlər ki, bizim sözümüzün imzamız qədər qüvvəsi, dəyəri var. Ona görə hesab edirəm ki, xarici siyasətlə bağlı aparılan işlər təqdirəlayiqdir. Xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Ümid edirəm ki, bundan sonra da biz bu istiqamətdə uğurlar yolu ilə gedəcəyik".

**Mustafa KAMAL,**
**"Respublika".**